AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİ - 60
BAKI BİZNES VƏ KOOPERASİYA KOLLECİ - 85

6 dekabr 2025 – ci tarixdə universitetimizin böyük akt zalında Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin, Azərbaycan Kooperasiya Universitetinin və Azərbaycan İqtisadçılar İttifaqının birgə təşkilatçılığı ilə Azərbaycan Kooperasiya Universitetinin 60 illik, onun tərkibində olan Bakı Biznes və Kooperasiya Kollecinin 85 illik yubileylərinə həsr edilmiş “Yeni reallıqlar şəraitində Azərbaycanın iqtisadi və sosial inkişafı: problemlər, çağırışlar, perspektivlər” mövzusunda beynəlxalq elmi-praktiki konfrans keçirilmişdir.

Tədbirin başlanmasından əvvəl Universitetin rəhbərliyi və qonaqlar Ulu öndər Heydər Əliyevin anım günü münasibətilə onun inzibati bina qarşısındakı abidəsini ziyarət etmiş və tər güllər düzərək dahi şəxsiyyətin xatirəsini ehtiramla yad etmişlər.





Konfrans Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və Ümummilli lider Heydər Əliyevin, eləcə də Vətənimizin müstəqilliyi, torpaqlarımızın azadlığı, suverenliyi uğrunda şəhid olmuş qəhrəman vətən övladlarımızın əziz xatirələrinin bir dəqiqəlik sükutla yad olunması ilə açıq elan olunmuşdur.

Azərbaycan Kooperasiya Universitetinin rektoru, Milli Məclisin deputatı, Azərbaycan Ağsaqqallar Şurasının sədri, konfransın Təşkilat Komitəsinin sədri, professor ***Eldar Quliyev*** açılış nitqi ilə çıxış edərək qonaqları salamlamış və respublika ali təhsil müəssisələri arasında özünəməxsus layiqli yer tutan universitimizin 60 ildə keçdiyi tarixi inkişaf yolu barədə ətraflı məlumat vermişdir.



Konfransın plenar iclasında Azərbaycan Respublikası Elm və Təhsil nazirinin müavini ***Firudin Qurbanov,*** Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, professor ***İsa Həbibbəyli,***

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru professor ***Ədalət Muradov,*** Türkiyə Böyük Millət Məclisinin millət vəkili, Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq qrupunun rəhbəri, Azərbaycan Kooperasiya Universitetinin fəxri professoru ***Şamil Ayrım,*** Ankara Universitetinin rektoru professor ***Necdet Ünüvar,*** dünyaşöhrətli azərbaycanlı alim, Dünya Azərbaycanlı Alimlər Birliyinin sədri, professor ***Məsud Əfəndiyev*** öz çıxışlarında yubiley təbriklərinə xüsusi yer vermişlər.

Eyni zamanda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının Baş katibi, AMEA-nın akademiki, Ümumdünya Elmlər Akademiyasının üzvü ***Asəf Hacıyevin,*** Rusiya Kooperasiya Universitetinin rektoru professor ***Alsu Nəbiyevanın,*** Ukrayna Təhsil və Elm Nazirliyi Dövlət Biotexnologiya Universitetinin rektoru vəzifəsini icra edən ***Andrey Kudryaşovun*** və Azərittifaq sisteminin bir sıra kooperativ təşkilat rəhbərlərinin təbrikləri də konfrans iştirakçılarının diqqətinə onlayn qaydada monitor vasitəsilə çatdırılmışdır. Ankara Universitetinin rektoru professor ***Necdet Ünüvarın*** təbrik nitqindən sonra ona təntənəli surətdə Azərbaycan Kooperasiya Universitetinin ***“Fəxri doktoru”*** diplomu təqdim edilmişdir.

Təbriklərin ardınca konfransın gündəliyinə uyğun olaraq məruzələrə yer verilmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycanın İqtisadçılar İttifaqının sədri, Milli Məclisin deputatı, Təşkilat Komitəsinin sədr müavini ***Ziyad Səmədzadənin,*** Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi fəaliyyətin təşkili və idarəedilməsi departamentinin direktoru, Əməkdar müəllim, iqtisad elmləri doktoru, professor ***Zahid Məmmədovun,*** Azərbaycan Kooperasiya Universitetinin Beynəlxalq əlaqələr və təlim–tərbiyə işləri üzrə prorektoru, iqtisad elmləri doktoru, professor ***Aygün Quliyevanın,*** Xarkov (Ukrayna) Dövlət Biotexnologiya Universitetinin elmi–pedaqoji işlər üzrə prorektoru, texnika elmləri namizədi, dosent ***Maksim Serikin,*** Sumqayıt Dövlət Universitetinin professoru, iqtisad elmləri doktoru, UNEC Qarabağ İqtisadi Araşdırmalar İnstitutunun rəhbəri ***Şəfa Əliyevin,*** Almaniya Beynəlxalq Tətbiqi Elmlər Universitetinin baş elmi işçisi, iqtisad elmləri doktoru, professor, həmyerlimiz ***Müslüm İbrahimovun,*** Azərbaycan Dövlət Aqrar Universitetinin “Maliyyə və mühasibat uçotu” kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor ***Məhərrəm Hüseynovun,*** Azərbaycan Kooperasiya Universitetinin II-ci kurs magistrantı ***Rəşidə Kərimovanın,*** I-ci kurs tələbəsi ***Yusif Şıxəliyevin*** məruzələri plenar iclasın iştirakçıları tərəfindən böyük maraqla dinlənilmişdir.

Plenar iclasın gedişində Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Azərbaycan Mərkəzi Kooperativlər İttifaqı tərəfindən Azərbaycan Kooperasiya Universitetinin 60 illik, Bakı Biznes və Kooperasiya Kollecinin 85 illik yubileyləri münasibətilə gənc mütəxəssislərin yetişdirilməsindəki, həmçinin elmi-pedaqoji sahədə səmərəli fəaliyyətlərinə görə hər iki təhsil müəssisələrinin bir qrup əməkdaşlarına “Fəxri Fərman”lar təqdim olunmuşdur.

Plenar iclasda həmçinin Milli Məclisin deputatları akademik ***Əhliman Əmiraslanov***, professor ***Eldar İbrahimov, Tənzilə Rüstəmxanlı, Ağalar Vəliyev, Heydər Əsədov*** dəvət olunmuş universitet rektorları professorlar ***Ədalət Muradov, İbad Abbasov, Əhməd Vəliyev, Yaşar Ömərov,*** eləcə də Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor ***Vaqif Şadlinski,*** Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, professor ***Vahid Novruzov,*** AKU-nun professor-müəllim heyəti, doktorantlar, tələbələr və çoxsaylı qonaqlar iştirak etmişlər.

Konfransın gedişində Universitetin “Mühasibat və kompüter mühəndisliyi”, “İqtisadiyyat və ekologiya muhəndisliyi” fakültələrinin tələbələrinin fərdi yaradıcılıqlarına aid təşkil olunmuş “AKUSTEAM” texnologiya və innovasiya sərgisi, həmçinin professor-müəllim heyətinin son 10 ildə çap etdirdikləri elmi-tədqiqat işləri, dərslikləri, dərs vəsaitləri və monoqrafiyalardan ibarət sərgisi də iştirakçıların böyük marağına səbəb olmuş və onlarda xoş təəssüratlar yaratmışdır.

Fasilədən sonra konfrans 4 bölmədə öz işini davam etdirmiş və saat 17:00-da Təşkilat Komitəsinin sədri, Universitetin rektoru, professor ***Eldar Quliyev*** bölmələr üzrə moderatorların hesabatlarını dinləyərək, irəli sürülən təklif və tövsiyələrini nəzərə alaraq, tədbiri yekunlaşdırmışdır.

KONFRANSIN GEDİŞİNDƏN FOTOGÖRÜNTÜLƏR








AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİ
1964


AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİ
1964


AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİ
1964


AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİ






AZƏRBAYCAN
KOOPERASİYA
UNİVERSİTETİ
FƏXRİ DOKTOR DİPLOMU


FƏXRİ FƏRMAN


AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİ
1964


AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİ










dövlət olmalıyıq ki, dünyada və


AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ
60
AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİNİN
PROFESSOR-MÜƏLLİM HEYƏTİNİN ELMİ ƏSƏRLƏRİ
KOOPERASİYA







AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRİ

ƏMR

№3-29/3-1-1962K/2025

Bakı şəhəri **01 dekabr 2025 il**

Azərbaycan Kooperasiya Universitetinin və Universitetin tərkibində Bakı Biznes və Kooperasiya Kollecinin əməkdaşlarının təltif edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 24 iyul tarixli 2242 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi haqqında Əsasnamə”nin 4.1.8-ci və 5.5.10-cu yarımbəndlərini rəhbər tutaraq əmr edirəm:

Azərbaycan Kooperasiya Universitetinin 60 illiyi və Universitetin tərkibində Bakı Biznes və Kooperasiya Kollecinin 85 illiyi münasibətilə kadr hazırlığı sahəsində səmərəli fəaliyyətlərinə görə Universitetin və Kollecin adları aşağıda göstərilən əməkdaşları “Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Fəxri Fərmanı” ilə təltif edilsinlər:

S./№	Soyadı, adı, atasının adı	Vəzifəsi
1.	Ataşov Bəyalı Xanalı oğlu	Elm və innovasiyalar üzrə prorektor, müəllim
2.	Bədirzadə Gülsüm Şamil qızı	“İnformatika və ÜTF” kafedrasının müdiri, müəllim
3.	Gərayev Vahid Vaqif oğlu	Tədris şöbəsinin müdiri, müəllim
4.	Həsənova Əminə İbrahimxəlil qızı	Baş mühasib
5.	Hacıyeva Şahnaz Eldəniz qızı	“Statistika və gömrük işi” kafedrasının müəllimi
6.	Quliyev Ələkbər Əli Əsgər oğlu	Təsərrüfat şöbəsinin müdiri
7.	Məmmədova Samirə Yaşar qızı	Elm və doktorantura şöbəsinin müdiri, müəllim
8.	Mehdizadə Nərmin Qurban qızı	“Maliyyə və bank işi” kafedrasının müəllimi
9.	Nazıyev Zakir Cəlal oğlu	İnsan resursları və daxili nəzarət şöbəsinin rəisi
10.	Nəbiyev Əmirastan Məhəmməd oğlu	Magistratura şöbəsinin müdiri, müəllim
11.	Zeynalova Aytən Səfəralı qızı	Bakı Biznes və Kooperasiya Kollecinin Tədris işləri üzrə direktor müavini, müəllim
12.	Quliyeva Cəmilə Elçin qızı	Bakı Biznes və Kooperasiya Kollecinin Tədris şöbəsinin müdiri, müəllim
13.	Əkbərov Tamerlan Eldar oğlu	Bakı Biznes və Kooperasiya Kollecinin Qiyabi şöbəsinin müdiri, müəllim
14.	Əsgərova Afaq Fərrux qızı	Bakı Biznes və Kooperasiya Kollecinin Biznes və idarəetmə şöbəsinin müdiri, müəllim

Əsas: Azərbaycan Kooperasiya Universitetinin 23.10.2025-ci il tarixli 01-04/205 nömrəli məktubu

EMİN ƏMRULLAYEV

AZƏRİTTİFAQIN İDARƏ HEYƏTİNİN QƏRARI

Azərbaycan Kooperasiya Universitetinin və Bakı Biznes və Kooperasiya Kollecinin qabaqcıl işçilərinin təltif edilməsi haqqında

Azərittifaqın İdarə Heyəti qeyd edir ki, Azərbaycan Kooperasiya Universitetinin yaradılmasının 60 ili, Bakı Biznes və Kooperasiya Kollecinin 85 illiyi tamam olmuşdur. Bununla əlaqədar

Azərittifaqın İdarə Heyəti qərara alır:

1. Azərbaycan Kooperasiya Universitetinin və onun tərkibindəki Bakı Biznes və Kooperasiya Kollecinin yubileyləri münasibətilə ölkəmizin əmək bazarının ali və orta təhsilli mütəxəssislərə olan tələbatının ödənilməsində dəyərli xidmətləri və uzun müddətli səmərəli elmi-pedaqoji fəaliyyətləri nəzərə alınaraq aşağıdakı əməkdaşlar Azərittifaqın İdarə Heyətinin “Fəxri Fərman”ı ilə təltif edilsinlər:

Azərbaycan Kooperasiya Universiteti üzrə

Şükürov Tahir Şükür oğlu	–	Ümumi işlər üzrə prorektor, dosent
Hüseynov Xanoğlan Əndəlif oğlu	–	“Mühasibat və kompüter mühəndisliyi” fakültəsinin dekanı, dosent
Kərimov Nadir Tofiq oğlu	–	“İdarəetmə” fakültəsinin dekanı, dosent
Nəsibov Afiq Cavanşir oğlu	–	“Qida mühəndisliyi və texnologiya” fakültəsinin dekanı, dosent
Məhərrəmov Eldəniz Məzahir oğlu	–	“Marketinq və menecment” fakültəsinin dekanı
Ağayeva Rəna Mahmudağa qızı	–	“İqtisadiyyat və ekologiya mühəndisliyi” fakültəsinin dekan müavini
Hüseynov Möhübbət Musa oğlu	–	“Dünya iqtisadiyyatı və regionşünaslıq” kafedrasının müdiri, professor
Qasımov Rəşid Cabbar oğlu	–	“Riyaziyyat” kafedrasının müdiri, dosent
Məmmədov Rauf Qəzənfər oğlu	–	“Mülki müdafiə və həyat fəaliyyətinin təhlükəsizliyi” kafedrasının müdiri, dosent
Həsənov Rövşən Ağahüseyn oğlu	–	“Marketinq” kafedrasının müdiri, dosent
Əliyeva Aynur Ramiz qızı	–	“Humanitar fənlər” kafedrasının müdiri, dosent
Tağıyeva Mehriban Kərəm qızı	–	“Maliyyə və bank işi” kafedrasının müdiri, dosent
Abbasov Anar Fazil oğlu	–	“Biznesin təşkili, dövlət və bələdiyyə idarəetməsi” kafedrasının professoru
Qurbanzadə Azər Ağazeynal oğlu	–	Baş mühasibin müavini, dosent
Quliyeva Afət Adil qızı	–	“Qida mühəndisliyi və ekspertizası” kafedrasının baş müəllimi, fəlsəfə doktoru
Cahangirova Bəsti İsgəndər qızı	–	“Marketinq” kafedrasının baş müəllimi
Səfərova Sara İbrahim qızı	–	“Kompüter mühəndisliyi və informasiya texnologiyaları” kafedrasının dosenti
Hüseynova Vüsalə Məzahir qızı	–	“Tərcümə” kafedrasının baş müəllimi
Nəbiyeva Aytac Əmirastan qızı	–	“Riyaziyyat” kafedrasının baş müəllimi
Əliyev Əhməd Ziyəddin oğlu	–	Nəşriyyat-mətbəə şöbəsinin müdiri
Canbaxışova Salatın İbrahim qızı	–	Tibb məntəqəsinin həkimi

Bakı Biznes və Kooperasiya Kolleci üzrə

Zakirova Məlahət Sabir qızı	–	müəllim
Cavadova Bəyaz Səttar qızı	–	müəllim
Ramazanov Ağa Mehdi Məmməd oğlu	–	müəllim
Həmidov Ramiz Hacıbaba oğlu	–	müəllim
Mənsurlu Namiq Məhəmmədəli oğlu	–	“Mühasibat uçotu və maliyyə işi” şöbəsinin müdiri, fəlsəfə doktoru
Əsgərova İlahə Elşən qızı	–	İnsan resursları üzrə baş təlimatçı, müəllim

2. Əsasnaməyə uyğun olaraq “Fəxri fərman”la təltif edilmiş şəxslərin hər birinə 100 (bir yüz) manat pul mükafatı verilsin.

3. Pul mükafatları təltif olunan əməkdaşların işlədikləri tədris müəssisələri tərəfindən ödənilsin.

4. Azərittifaqın İdarə Heyəti Aparatına (Q.N.Ağayev) tapşırılsın ki, «Fəxri Fərman»ların hazırlanmasını və təqdim edilməsini təmin etsin.

İdarə Heyətinin sədri ***E.A.Quliyev***

Üzvləri:
T.Y.Rüstəmxanlı
F.İ.İsmayılov
Q.N.Ağayev
B.X.Ataşov
A.E.Quliyeva
E.Q.Allahverdiyev

Hazırlamışdır:
İdarə Heyəti Aparatının rəhbəri-
Kadrlar idarəsinin rəisi Q.N.Ağayev

AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİNİN TARİXİ HAQQINDA QISA ARAYIŞ

Azərbaycan Kooperasiya Universitetinin əsası 1964-cü ildə qoyulmuşdur. Keçmiş Azərbaycan SSR Nazirlər Sovetinin müraciəti və SSRİ Mərkəzi İstehlak Cəmiyyətləri İttifaqı – “Sentrosoyuz”un İdarə Heyətinin 1964-cü il 08 yanvar tarixli 07 saylı qərarı ilə Moskva Kooperativ İnstitutunun (MKİ) Bakı Tədris-Məsləhət Məntəqəsi (BTMM) yaradılmışdır. Həmin ilin sentyabrında bu ali təhsil müəssisəsinə “Ticarətin iqtisadiyyatı” və “Əmtəəşünaslıq” ixtisasları üzrə qiyabi şöbəyə 50 nəfər tələbə qəbul olunmuşdur. 1964-1969-cu illər ərzində isə BTMM-ə 320 nəfər tələbə qəbul olunmuş, 50 nəfər bitirmiş və tələbələrin ümumi sayı 270 nəfər təşkil etmişdir.

Azərittifaqın və Azərbaycan SSR Nazirlər Sovetinin müraciəti ilə SSRİ “Sentrosoyuz”u İdarə Heyətinin 1969-cu il 21 avqust tarixli Qərarına əsasən, Moskva Kooperativ İnstitutunun (MKİ) Bakı Tədris-Məsləhət Məntəqəsi Bakı Qiyabi İqtisad fakültəsinə (BQİF) çevrilmişdir.

1969-1975-ci illər ərzində BQİF-yə 3 ixtisas üzrə 474 nəfər tələbə qəbul edilmiş və 317 nəfər məzun olmuşdur. Bu dövrdə “Ticarətin iqtisadiyyatı”, “Mühasibat uçotu” və “Qeyri-ərzaq mallarının əmtəəşünaslığı” ixtisasları üzrə tələbə kontingenti 407 nəfər təşkil etmişdir.

Keçmiş SSRİ “Sentrosoyuz”un İdarə Heyətinin 1974-cü il 13 dekabr tarixli 157 saylı Sərəncamı və MKİ rektorunun 1975-ci il 10 yanvar tarixli 25 saylı əmri ilə Moskva Kooperativ İnstitutunun Bakı Qiyabi İqtisad fakültəsi Moskva Kooperativ İnstitutunun Bakı filialına çevrilmişdir.

Moskva Kooperativ İnstitutunun Bakı filialı fəaliyyəti dövründə Baş institut və Azərittifaq tərəfindən maliyyələşdirilmiş, “Ticarətin iqtisadiyyatı”, “Mühasibat uçotu”, “Ərzaq mallarının əmtəəşünaslığı” və “Qeyri-ərzaq mallarının əmtəəşünaslığı” ixtisasları üzrə kadr hazırlığı aparmış, 1979-cu ildə 2 fakültə - “İqtisad” və “Əmtəəşünaslıq” fakültələri yaradılmış və 3 kafedra - “İqtisadi fənlər”, “İctimai elmlər” və “Ümumelmi fənlər” kafedraları, həmçinin “Əmtəəşünaslıq” fənləri metodbirləşməsi fəaliyyət göstərmişdir.

1980-ci ilin oktyabrında filialın nəzdində “Ehtiyat kadrlar hazırlığı” və 2 illik ixtisasartırma kursu da yaradılmışdır.

SSRİ “Sentrosoyuz”u İdarə Heyətinin 26 mart 1985-ci il tarixli 133 saylı Sərəncamı ilə filial Moskva Kooperativ İnstitutunun tərkibindən çıxarılaraq Poltava Kooperativ İnstitutunun (Ukrayna) tərkibinə verilmişdir.

1986/87-ci tədris ilində filialda artıq 5 ixtisas üzrə kadr hazırlanırdı. Respublikada ilk dəfə bu fi-lialda “Kənd təsərrüfatı məhsulları tədarükünün iqtisadiyyatı və təşkili” ixtisası üzrə ali təhsilli mütəxəssis hazırlığı aparılmışdır.

“Sentrosoyuz”un region bölgüsünə əsasən filialda Stavropol və Qafqaz respublikaları üçün koope-rasiya istiqamətli ali təhsilli mütəxəssis hazırlığı aparılırdı.

İxtisasartırma fakültəsini hər il 500 nəfər ali və orta ixtisas təhsilli dinləyici bitirmişdir.

Filial dövründə tədris binasının ümumi sahəsi 2600 kv.m., tədris auditoriya, kabinet və laboratoriyalarının sayı 27, professor-müəllim heyətinin sayı 46 və tələbə kontingenti 745 nəfər olmuşdur.

1981-ci ildə filialda professor-müəllim və tədris-köməkçi heyətin sayı 47, tələbələrin sayı isə 1000 nəfərdən artıq idi.

“Sentrosoyuz”un İdarə Heyətinin 11 iyun 1990-cı il tarixli 137 saylı qərarı ilə 1990/91-ci tədris ilində Poltava Kooperativ İnstitutunun Bakı filialı Moskva Kooperativ İnstitutunun tabeçiliyinə keçməklə həmin il filiala 100 nəfər əyani tələbə qəbul edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 09 yanvar 1992-ci il tarixli 08 saylı qərarı ilə

Moskva Kooperativ İnstitutunun Bakı filialı “Azərittifaq”ın mülkiyyətinə verilmiş, On yeddinci çağırış “Azərittifaq” Şurasının altıncı yığıncağının təklifi və “Azərittifaq”ın İdarə Heyətinin 19 mart 1993-cü il tarixli 31 saylı qərarı ilə Moskva Kooperativ İnstitutunun Bakı filialının bazasında müstəqil Azərbaycan Kooperasiya İnstitutu yaradılmış və onun Nizamnaməsi təsdiq edilmişdir.

Azərbaycan Kooperasiya İnstitutu yaradılarkən tələbə kontingenti 1059, o cümlədən əyani təhsil alan tələbələr 587, tələbə qəbulu 350 və məzun 100 nəfər olmuşdur.

1993-cü ildə AKİ-də 2 fakültə - “İqtisad” və “Əmtəəşünaslıq-kommersiya” fakültəsi və 6 kafedra fəaliyyət göstərirdi. Professor-müəllim heyətinin ümumi sayı 42 nəfər, onlardan professor - 3 nəfər, dosent - 25 nəfər olmuşdur.

1995-2000-ci illərdə İnstitutda 2 fakültə və 9 kafedra olmaqla 11 ixtisas üzrə kadr hazırlığı aparılmışdır.

1998/99-cu tədris ilində tələbələrin ümumi sayı 1292 nəfər olmuşdur. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 16 sentyabr 1997-ci il tarixli 420 saylı əmri ilə institutda magistr hazırlığına icazə verilmiş və həmin il magistraturaya 7 ixtisas üzrə 27 tələbə qəbul edilmişdir.

2000-ci ilədək magistr tələbələrinin ümumi sayı 55 nəfər olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti, Ümummilli lider Heydər Əliyevin 2000-ci il 30 avqust tarixli 391 saylı Fərmanı ilə Azərbaycan Kooperasiya Universitetinin profilinin genişləndirilməsi ilə əlaqədar Təhsil Nazirliyinə və Nazirlər Kabinetinə göstəriş verilmişdir.

Bunun nəticəsi olaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 aprel 2001-ci il tarixli 17/17635-11 saylı və Təhsil Nazirliyinin 12 dekabr 2000-ci il tarixli 40-11-365/14 saylı razılıq məktublarına əsasən “Azərittifaq”ın İdarə Heyətinin 03 may 2001-ci tarixli 60 saylı qərarı ilə Azərbaycan Kooperasiya İnstitutu Azərbaycan Kooperasiya Universitetinə (AKU) çevrilmiş və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən Nizamnaməsi təsdiq edilərək 22 may 2002-ci il tarixli Dövlət qeydiyyatı haqqında 46 saylı şəhadətnamə verilmişdir.

Hazırda Universitetdə 271 nəfərdən ibarət professor-müəllim heyəti, o cümlədən 158 fəlsəfə doktoru və 19 professor çalışır.

Universitetin geniş maddi-texniki bazası vardır. Tədris korpusunun ümumi sahəsi 10500 kv.m. təşkil edir. Burada 65-dən çox fənn və tədris laboratoriyası, o cümlədən 4 kompüter texnologiyaları laboratoriyası, mətbəə, tibb məntəqəsi, idman zalı, kitabxana, oxu zalı və s. vardır.

Universitetdə təhsil əyani və qiyabi formada olmaqla, Azərbaycan, rus və ingilis dillərində həyata keçirilir, “Tədris”, “Elm və doktorantura”, “Beynəlxalq əlaqələr”, “Keyfiyyət təminatı”, “Magistratura” və digər şöbələr fəaliyyət göstərir.

Hazırda uzun müddətdir ki, universitetin nəzdində Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının müvafiq əmri ilə yaradılmış fəlsəfə doktoru və elmlər doktoru dissertasiyalarının müdafiəsini keçirən Birgə Şura da öz işini davam etdirir.

2002-ci ildən Universitetdə aylıq “Bizim qəzet - Kooperasiya” və 2005-ci ildən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının elmi nəşrləri reyestrinə daxil edilmiş “Kooperasiya” adlı rüblük elmi-praktiki jurnal nəşr edilir.

AKU 2000-ci ildən MDB öllkələri Kooperasiya Ali Məktəb Rektorlar Şurasının üzvü olmaqla digər ölkələrin universitetləri ilə sıx əməkdaşlıq edir, onlarla tələbə-müəllim təcrübə mübadiləsi həyata keçirilir, elm-tədqiqat işləri yerinə yetirilir.

Universitetin nüfuzlu ali təhsil ocağı kimi formalaşması və inkişafı dövrünün ayrı-ayrı mərhələlərində Hacı Murad Bəylərоviç Tabasaranski, Süleyman Sadıx oğlu Abdinbəyov, Səttar İsmayıl oğlu Səfərov, Yolçu Alı oğlu Məsiyev, Mahmud Məmməd oğlu Quluzadə, Gəncəli Əziz oğlu Gənciyev, Firəddin Murtuza oğlu Quliyev, Eldar İslam oğlu Zülfüqarovun xidmətləri olmuşdur.

2011-ci ildən Azərbaycan Kooperasiya Universitetinə rektor olaraq tanınmış alim və ictimai-siyasi xadim, Milli Məclisin deputatı, Azərbaycan Ağsaqqallar Şurasının sədri, iqtisad elmləri doktoru, professor Eldar Allahyar oğlu Quliyev rəhbərlik edir.

AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİNİN İNKİŞAF DİNAMİKASI

Tədris illəri / Göstəricilər	1964-1965	1969-1970	1974-1975	1979-1980	1984-1985	1989-1990	1994-1995	1999-2000	2004-2005	2009-2010	2014-2015	2019-2020	2024-2025
Fakültələrin sayı	-	1	2	2	2	2	2	2	4	7	8	8	7
Kafedraların sayı	-	2	3	3	3	3	6	6	25	25	27	21	21
İxtisasların sayı	2	3	4	4	5	4	11	11	21	22	19	22	26
Professor-müəllim heyəti (nəfər)	12	15	27	31	34	40	54	68	147	195	230	257	271
Bakalavr tələbə kontingenti (nəfər)	270	407	534	1018	1118	913	1069	1410	2400	2610	2900	3286	3874
Magistr tələbə kontingenti (nəfər)	-	-	-	-	-	-	-	75	155	62	35	141	538
Doktorant və dissertantların sayı (nəfər)	-	-	-	-	-	-	-	-	40	42	49	55	59